21 dekabr.-S.7.

AZƏRBAYCAN ORDUSU

## Medallı igidlərimiz

# Şəhid heykəltəraş anıldı



***Bu yaxınlarda Xalq Bankın təşkilatçılığı ilə "Xalq Əmanəti" layihəsi çərçivəsində aprelin əvvəllərində torpaqlarımız uğrunda döyüşlərdə şəhid olmuş heykəltəraş Samir Kaçayevin əsərlərindən ibarət sərgi keçirildi. Sərgidə gənc sənətkarın həyat və yaradıcılığına həsr olunmuş bədii albomun təqdimat mərasimi oldu.***

Tədbiri giriş sözü ilə açan millət vəkili Rəfael Hüseynov şəhidin 22 illik qısa ömür yolundan danışdı.

- Əziz Samir, bu gün sənin bayramındı. Həm yaradıcılıq nöqteyi-nəzərindən, həm də insanlıq baxımından zirvədə dayanan bir gənc olmusan. İnanıram ki, Samir yaşasaydı, Azərbaycanın məşhur heykəltəraşlarından biri olacaqdı. Çünki sübut hər birimizin gözü qarşısındadı. Hər bir Azərbaycan vətəndaşı kimi məndə də qətiyyən şübhə yoxdur ki, işğal altında olan torpaqlarımız azad olunacaq və qəsb edilmiş şəhər və qəsəbələrimiz bərpa olunacaq. Sənin kimi torpaqlarımızın bütövlüyü uğrunda həlak olmuş oğullarımızın əziz xatirəsi daim qəlbimizdə yaşayacaq.

Çıxışının sonunda şəhidimizin valideynlərinə minnətdarlığını bildirən millət vəkili övlad itkisini mərdliklə, dəyanətlə qarşıladıqlarına görə onları da qəhrəman adlandırdı.

Xalq rəssamı, Rəssamlıq Akademiyasının rektoru Ömər Eldarov Samir Kaçayevi belə xatırladı: "Samir təhsil ocağımızın ən nümunəvi tələbəsi, məharətli heykəltəraş idi. Onun işlərində fərqlilik və mükəmməllik var idi. Sənəti dərinliklərinə qədər mənimsəməyə çalışırdı. Nəzəri və praktiki cəhətdən də kamil və mükəmməl idi. Onun qismində Azərbaycan istedadlı bir heykəltəraşını itirdi".

Azərbaycan Rəssamlıq Akademiyasının professoru, əməkdar incəsənət xadimi Akif Əsgərov Samir haqqında danışmağın ona çox çətin, ağrılı gəldiyini bildirdi. Samirin bacarıqlı, vətənpərvər və tərbiyəli olduğunu bildirən Akif müəllim indiki gənclərə onun kimi yaşamağı tövsiyə etdi. - Onun əsərləri ayrı-ayrılıqda böyük sənət əsəridir, - deyə natiq çıxışına davam etdi. - Ən əsası onun böyük ürəyi, gözəl hissiyyatı var idi. Hər bir əsəri bir yenilik, bir kəşfdir.

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti polkovnik-leytenant Faiq Qəribov Samir Kaçayevin valideynlərini əvvəlcədən tanıdığını, şəhidimizlə ölümündən qabaq əlaqə saxladığını sərgi iştirakçılarının nəzərinə çatdırdı.

- Samir təvazökar insan olmaqla yanaşı, həm də bir qəhrəman idi, - deyə polkovnik-leytenant bildirdi. - Bu qəhrəmanlıq Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən yüksək qiymətləndirilib və Samir "İgidliyə görə" medalı ilə təltif edilib.



Zabit çıxışında Azərbaycan Silahlı Qüvvələrində quruculuq prosesinin davam etdiyini və ordunun yüksək inkişaf dövrü yaşadığını, ölkəmizin ərazi bütövlüyünü təmin etməyə qadir olduğunu sərgi iştirakçılarının diqqətinə çatdırdı.

Tələbə yoldaşı Zamiq Rzayev və döyüşçü yoldaşı Müşfiq Bayramov çıxışlarında Samirin yüksək insani keyfiyyətlərə malik olduğunu bildirdilər. Həmçinin qeyd etdilər ki, onun dostlarına səmimi münasibəti, yoldaşlarının hansısa bir ehtiyacını hiss edəndə əlindən gələni əsirgəməməsi yaddan çıxmaz xüsusiyyətlərindəndir. Bütün bu xüsusiyyətlər ona dostları tərəfindən böyük rəğbətin yaranmasına səbəb olurdu.

Tədbirin sonunda gənc sənətkarın 50-dən çox heykəltəraşlıq və qrafika işinin daxil edildiyi, layihənin sayca 14-cü nəşri olan "Heykəltəraşlıq" albomu sərgi iştirakçılarına hədiyyə edildi. Sonra sərgiyə baxış keçirildi. Şəhid heykəltəraşın yaratdığı əsərlər hər kəsdə böyük maraq doğurdu. Onun əsərlərinə baxdıqda Vətənimizin, xalqımızın milli dəyərlərinin əhatəli şəkildə əks etdirildiyini görmək mümkündür.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**